

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 71 (21.223)

14 aprel 2015-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri İranın Sərhəd Qoşunlarının komandanı ilə görüşmüşdür






İran İslam Respublikası Sərhəd Qoşunlarının komandanı, general-mayor Qasım Rzayi Azərbaycan və İran Sərhəd Qoşunları komandanlarının görüşündə iştirak etmək üçün muxtar respublikaya səfərə gəlmişdir.

Aprelin 13-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının Sərhəd Qoşunlarının komandanı, general-mayor Qasım Rzayi və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Ali Məclisin Sədri qonaqları salamlamış, Qasım Rzayini muxtar respublikada görməkdən məmnunluğunu ifadə edərək demişdir: "Sərhəd hər bir dövlət üçün strateji sahədir. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında iki sərhəd-keçid məntəqəsi fəaliyyət göstərir. Muxtar respublika ilə İranın qonşu vilayətləri arasında əlaqələrin qurulması və inkişafında bu sərhəd-keçid məntəqələri mühüm əhəmiyyət daşıyır".

Ali Məclisin Sədri ölkələrimiz arasında tarixən dostluq münasibətlərinin olduğunu diqqətə çatdırmış və bu gün dövlət başçıları tərəfindən ikitərəfli əlaqələrin uğurla inkişaf etdirildiyini bildirmişdir. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri, o cümlədən sərhəd xidmətləri arasındakı mövcud əməkdaşlığa diqqəti çəkən Ali Məclisin Sədri əlaqələrin inkişafında birgə səylərin və qarşılıqlı görüşlərin vacibliyini vurğulamışdır.

İran İslam Respublikası Sərhəd Qoşunlarının komandanı, general-mayor Qasım Rzayi səmimi qəbula görə minnətdarlıq etmiş, Naxçıvan Muxtar Respublikasının sürətli sosial-iqtisadi inkişafının böyük məmnunluq doğurduğunu bildirmişdir. Qonaq İran və Azərbaycanın Sərhəd Qoşunları arasında əlaqələrin hazırkı inkişafından danışmış, hər iki ölkənin Sərhəd Qoşunları komandanlarının Naxçıvan görüşünün əməkdaşlıq üçün yeni istiqamətlər açacağını qeyd etmişdir.

Söhbət zamanı dövlət sərhəd xidmətləri arasında əlaqələrin genişləndirilməsinin vacibliyinə toxunulmuş, qarşılıqlı fikir mübadiləsi aparılmışdır.

Sonda xatirə şəkli çəkdirilmişdir.

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi, Sərhəd Qoşunları komandanı, general-polkovnik Elçin Quliyev və İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Mənsur Ayrım görüşdə iştirak etmişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## İranın Sərhəd Qoşunları komandanının rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvanda bir sıra görüşlər keçirib, tarixi abidələrlə və mədəniyyət müəssisələri ilə tanış olub



*İran İslam Respublikası Sərhəd Qoşunlarının komandanı, general-mayor Qasım Rzayinin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvana səfəri çərçivəsində bir sıra görüşlər keçirib. Azərbaycan sərhədçiləri ilə keçirilən görüşdə Azərbaycan-İran dövlət sərhədində və sərhəd-keçid məntəqələrindəki vəziyyətlə bağlı fikir mübadiləsi aparılıb, qarşılıqlı əməkdaşlığın mövcud durumu və perspektivləri müzakirə olunub.*

İkitərəfli görüşdən sonra İran İslam Respublikası Sərhəd Qoşunlarının komandanı, general-mayor Qasım Rzayi və Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev mətbuata açıqlamasında hər iki qurum arasında əməkdaşlığın yüksələn xətt üzrə inkişaf etdiyini bildirib, dövlət sərhədindən qaçaqmalçılığa, transsərhəd cinayətkarlığa qarşı birgə mübarizə tədbirlərinin daha da genişləndirilməsinin vacibliyini vurğulayıblar.

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev bu cür geniş tərkibdə heyətlə görüşün ilk dəfə məhz Naxçıvanda baş tutduğunu deyib.

İran İslam Respublikası Sərhəd Qoşunlarının komandanı, general-mayor Qasım Rzayi isə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasındakı mövcud əməkdaşlığın vəziyyətindən məmnunluğunu ifadə edib: "İran və Azərbaycan xalqları istər tarixi, istər dini, istərsə də mədəni baxımdan bir-birlərinə çox yaxın xalqlardır. Dövlətlərimiz arasında yüksək səviyyəli siyasi əlaqələr var və bu əlaqələr sərhəd əməkdaşlığının da hərtərəfli inkişaf etməsinə şərait yaradır. Bizim bu sahədəki əməkdaşlığımızı, birliyimizi heç bir qüvvə poza bilməz. Naxçıvana gəldikdə isə, artıq bir neçə saatdır ki, buradayıq. Əvvəlki illərlə müqayisədə mən Naxçıvanda sürətli inkişafın şahidi oldum. Bu inkişafı hər yerdə müşahidə etmək mümkündür. Küçələrdəki insanların simasında mövcud şəraitdən razılıq əlaməti hiss olunur".

Sonra qonaqlar "Naxçıvanqala" Tarix-Memarlıq və "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey komplekslərində olublar. "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində qonaqlara məlumat verilib ki, Naxçıvanın ərazisi dünyanın ən qədim insan məskənlərindən biridir. Bunun nəticəsidir ki, bu ərazidə tarixin bütün dövrlərinə aid zəngin mədəniyyət və memarlıq nümunələri yaradılıb. Bu abidələr arasında Naxçıvanqalanın mühüm əhəmiyyəti vardır.



2010-cu ildə Naxçıvanqalanın bərpasına başlanılıb, tarixi ərazidə yenidənqurma işləri aparılıb, qalanın əvvəlki görkəmi özünə qaytarılıb. Naxçıvanın qədim tarixi-mədəni irsinin mühafizəsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 5 iyun 2013-cü il tarixli Sərəncamı ilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi yaradılıb. Qeyd olunub ki, kompleksdəki muzeydə eramızdan əvvəl V minilliyə aid təsərrüfat küpü, eramızdan əvvəl V-III minilliyə aid müxtəlif məişət əşyaları, Son Tunc və Erkən Dəmir dövrlərinə aid keramika məmulatları, mis alətlər, qəbirüstü abidələr, silahlar, zirehli geyimlər nümayiş etdirilir.

"Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində isə qonaqlara məlumat verildi ki, Xan sarayı muzeyi Naxçıvan xanlığının milli dövlətçiliyimizdəki rolu nəzərə alınaraq yaradılıb. Səkkiz ekspozisiya zalından ibarət olan muzeydə 900-dən çox eksponat var. Bu eksponatlar içərisində arxiv sənədləri, fotoşəkillər, Naxçıvan xanlarının şəcərəsi, xanlığın xəritəsi nümayiş etdirilir. Kompleksdə yerləşən və Azərbaycan milli memarlığının möhtəşəm abidəsi olan Möminə xatın türbəsi 1186-cı ildə tikilib. Həmin dövrdə Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz həyat yoldaşı Möminə xatının məzarı üzərində məqbərə yaradılmasına qərar verib və bu məqbərə Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən inşa edilib. Açıq səma altında nümayiş olunan və Naxçıvan Muxtar Respublikasının ərazilərindən tapılan müxtəlif dövrlərə aid maddi-mədəniyyət nümunələri – daşdan düzəldilmiş qoç heykəllər, daş kitabələr, müxtəlif daş fiqurlar, qəbirüstü sənduqələr də qonaqların diqqətini çəkib.

**Səbuhi HƏSƏNOV**



## Müsabiqənin test imtahanları keçirilir

*Dövlət orqanlarında inzibati vəzifələrin VI-VII təsnifatına uyğun vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün 18 fevral 2015-ci il tarixdə elan edilmiş müsabiqənin test imtahanı mərhələsi davam edir.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyadan aldığımız məlumata görə, 36 dövlət orqanından 314 vakant vəzifə müsabiqəyə çıxarılıb. 350 nəfər namizədin sənəd təqdim etdiyi müsabiqənin aprelin 9-da başlanılan test mərhələsində namizədlərə qanunvericilik bilikləri üzrə 40, məntiqi təfəkkürün yoxlanılması üzrə 30, kompüter biliklərinin yoxlanılması üzrə 15, ümumi dünyagörüşü üzrə 15 olmaqla, 100 test tapşırığı təqdim olunub.

Məlumatda o da bildirilib ki, test imtahanları gündə iki dəfə olmaqla aprelin 17-dək davam edəcək. İmtahanlarda namizədlərin öz biliklərini sərbəst şəkildə nümayiş etdirmələri üçün hərtərəfli şərait yaradılıb. Obyektivliyin və tam şəffaflığın təmin edilməsi məqsədilə imtahan gedişinin video və audio yazısı qeydə alınır. İmtahandan dərhal sonra namizədlərə cavab kartı və nəticə arayışı verilir, imtahan nəticələri komissiyanın internet saytında yerləşdirilir. Test imtahanında müvafiq keçid balını toplamış namizədlər müsahibə mərhələsində iştirak etmək hüququ qazanırlar.

**Xəbərlər şöbəsi**

# Banklar öz fəaliyyətlərini günün tələbləri səviyyəsində qurublar

***2015-ci ilin birinci rübü ərzində Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar və digər kredit təşkilatları öz fəaliyyətlərini günün tələbləri səviyyəsində qurmağa çalışmışlar. Muxtar respublika iqtisadiyyatının inkişafını stimullaşdırmaq, iqtisadi artıma nail olmaq məqsədilə kreditləşmə funksiyası yüksək səviyyədə həyata keçirilmişdir. Belə ki, 1 aprel 2015-ci il tarixə muxtar respublikanın iqtisadiyyatına yönəldilən kredit qoyuluşu 116 milyon 992 min manat, o cümlədən qısamüddətli kredit qoyuluşu 14 milyon 974 min manat, uzunmüddətli kredit qoyuluşu isə 102 milyon 18 min manat təşkil etmişdir. Kredit qoyuluşu ötən ilin müvafiq dövrü ilə müqayisədə 32 milyon 587 min manat artmışdır.***

Bank və digər kredit təşkilatları tərəfindən 2015-ci ilin ilk üç ayı ərzində 27 milyon 270 min manat kredit verilmişdir ki, bu da keçən ilin müvafiq dövründə verilmiş kreditdən 17 milyon 845 min manat çox olmuş və ya 2,9 dəfə artmışdır. 2015-ci ilin yanvar-mart aylarında iqtisadiyyatın real sektoruna cəlb olunan kreditlərin həcminə görə sənaye sahəsi xüsusilə fərqlənir. Belə ki, ötən ilin müvafiq dövründə bu sahəyə yönəldilən kreditlərin həcmi 318 min manat təşkil edirdisə, cari ilin yanvar-mart aylarında bu göstərici 9 milyon 946 min manat artaraq 10 milyon 264 min manat olmuşdur. Tikinti sektorunda da bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə artımla müşahidə olunmuş və 369 min manat təşkil etmişdir. Kommersiyayönümlü kreditlərin həcmi isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 milyon 201 min manat artaraq 2 milyon 220 min manat olmuşdur. Nəqliyyat və rabitə sektorunun inkişafı ilə əlaqədar verilmiş kreditlərin həcmi isə bu günə qədərki dövr ərzində ən yüksək həddə çatmış, ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 milyon 690 min manat artaraq 3 milyon 705 min manata çatmışdır. Gənclərin mənzillərə olan tələbatının ödənilməsi məqsədilə daşınmaz əmlakla əlaqədar ipoteka kreditlərinin həcmində də ötən illə müqayisədə 2 milyon 233 min manat artım müşahidə edilmiş və belə kreditlərin həcmi 3 milyon 645 min manata çatmışdır. 2015-ci ilin ilk üç ayı ərzində verilmiş ipoteka kreditlərinin həcmi, ümumilikdə, 2014-cü il ərzində verilmiş kreditlərin həcmindən 1 milyon 592 min manat çoxdur.

Verilmiş kreditlərin 3 milyon 46 min manatı isə digər kommunal, sosial, şəxsi xidmətlərin göstərilməsi və istehlak kreditlərinin payına düşür ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 150 min manat artım deməkdir.

Kreditləşmənin intensiv həyata keçirildiyi sahələrdən biri də kənd təsərrüfatıdır. Kreditlərin yönləndirilməsi üçün riskli sahə olmasına baxmayaraq, kənd təsərrüfatının kreditləşdirilməsi cari ilin yanvar-mart ayları ərzində 4 milyon 21 min manata çatmış və verilmiş kreditlərin 14,7 faizini təşkil etmişdir. Bu göstəricinin artması təsadüfi deyil. Bu gün muxtar respublikamızda əhalini zəruri qida məhsulları və kənd təsərrüfatı malları ilə təmin etmək üçün güclü potensial mövcuddur. Həmin potensialın dəyərləndirilməsi üçün kənd təsərrüfatı ilə məşğul olan fermerlərin, bu sahədə fəaliyyət göstərən kiçik və orta sahibkarların stimullaşdırılması vacib məsələdir. Bu baxımdan muxtar respublikada fəaliyyət göstərən banklar və digər kredit təşkilatları tərəfindən kənd təsərrüfatının inkişaf etdirilməsi məqsədilə fermerlərə, sahibkarlara güzəştlə verilən aşağı faizli kreditlər böyük əhəmiyyətə malikdir. Qeyd olunan dövr ərzində kənd təsərrüfatının kreditləşməsində heyvandarlığın inkişafı xüsusi yer tutmuşdur. Belə ki, bu sahəyə 2 milyon 839 min manat kredit verilmişdir. Bitkiçiliyin inkişafına yönləndirilmiş kreditlərin həcmi isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 112 min manat artaraq 1 milyon 33 min manata çatmışdır. Arıçılığın və quşçuluğun inkişafı da diqqətdən kənarda qalmamış və bu məqsədlə cəlb edilmiş kreditlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 54 min manat artaraq 140 min 200 manat olmuşdur. Kənd təsərrüfatının digər sahələrinə də kreditlərin verilməsi davam etdirilmişdir.

Növbəti aylar ərzində isə yaz əkinləri ilə əlaqədar olaraq, kənd təsərrüfatı kreditlərinin həcminin artırılması nəzərdə tutulmuşdur.

Muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən fiziki və hüquqi şəxslər üçün açılmış bank hesablarının işlək hesablara çevrilməsi istiqamətində də tədbirlər həyata keçirilmişdir. Banklar tərəfindən 2015-ci ilin birinci rübündə 2269 hüquqi, 39 min 175 fiziki şəxs olmaqla, 41 min 444 müştəriyə xidmət göstərilmişdir. Xidmət olunan hesabların 37 min 983-ü işlək hesab olmuşdur ki, onların 1336-sı hüquqi, 36 min 647-si fiziki şəxslərə məxsusdur.

2015-ci ilin yanvar-mart ayları ərzində 20 hüquqi, 3170 fiziki şəxs olmaqla, 3190 müştəriyə yeni bank hesabı açılmışdır. Açılmış bank hesablarının 3189-u fəaliyyət göstərir ki, onların 20-si hüquqi, 3169-u fiziki şəxslərə aiddir.

"Naxçıvan Muxtar Respublikasında elektron ödəniş məkanının formalaşdırılması və nağdsız hesablaşmaların həcminin artırılması üzrə Tədbirlər Planı"na uyğun olaraq, nağdsız ödənişlərin miqyasının genişləndirilməsi, innovativ ödəniş alətlərindən və xidmətlərindən istifadənin kütləvi hal alması və elektron ödəniş xidmətlərindən istifadə aktivliyinin artırılması üçün müvafiq tədbirlər həyata keçirilmiş, dövlət təşkilatlarında əhaliyə göstərilən xidmətlər üzrə rüsum və xidmət haqlarının nağdsız ödəniş alətləri vasitəsilə ödənilməsi imkanları artırılmışdır. Artıq muxtar respublika sakinləri ödəniş kartları vasitəsilə vergi və rüsumları, dövlət yol polisi, pasport və şəxsiyyət vəsiqəsi alınması üçün rüsumları, gömrük rüsumlarını, Dövlət Sosial Müdafiə Fondu və onun yerli şöbələrinə sosial sığorta haqlarını, mobil və stasionar telefonların abunə və danışıq xərclərinin ödənilməsini elektron ödəniş formasında aparırlar.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin və Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin əməkdaşlarının iştirakı ilə ticarət, iaşə və digər xidmət müəssisələrində quraşdırılmış POS-terminallardan müştərilərlə hesablaşmaların ödəniş kartları vasitəsilə aparılmasının monitorinqi keçirilmiş, nağdsız əməliyyat aparmayan mal satan və xidmət göstərən sahibkarlarla xüsusi maarifləndirici görüşlər təşkil edilmiş, müvafiq tövsiyələr verilmişdir.

2015-ci ilin yanvar-mart ayları ərzində POS-terminallar və digər ödəniş vasitələri ilə aparılan nağdsız əməliyyatlar ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 milyon 841 min manat artaraq 4 milyon 211 min manat olmuşdur.

Eyni zamanda Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi və "Naxçıvanqaz" İstehsalat Birliyi tərəfindən vətəndaşların kommunal ödənişlərini POS-terminallarla yanaşı, ödəniş kartlarından istifadə etməklə internet üzərindən həyata keçirmələri də təmin olunmuşdur.

2015-ci ildə qarşıya qoyulmuş əsas vəzifələrdən biri də su-kanalizasiya xidmətlərinin və Naxçıvan şəhərində sərnişindaşımada gediş haqlarının nağdsız ödəniş alətləri vasitəsilə ödənilməsi imkanının yaradılmasından ibarətdir.

Ödəniş sistemlərinin inkişaf etdirilməsi, iqtisadi fəaliyyət göstərən şəxslərin və əhalinin elektron ödəniş sistemlərindən daha fəal istifadə etməsi, dövriyyədə olan nağd pul kütləsinin nağdsız dövriyyə ilə əvəz edilməsi, ticarət, iaşə və digər xidmət müəssisələrində müştərilərlə hesablaşmaların ödəniş kartları vasitəsilə aparılması üçün POS-terminalların quraşdırılması daim diqqət mərkəzində saxlanılmış, 1 aprel 2015-ci il tarixə onların sayı 948 ədəd olmaqla, keçən ilin müvafiq dövrü ilə müqayisədə 552 ədəd, 1 yanvar 2015-ci il tarixlə müqayisədə isə 81 ədəd artmışdır.

Bu tədbirlərin həyata keçirilməsi nağd pul dövriyyəsinin məhdudlaşdırılmasına, təsərrüfat subyektlərində maliyyə intizamının gücləndirilməsinə təsir göstərən əsas amillərdən biridir.

Muxtar respublika üzrə əməkhaqqı, pensiya və fərdi ödəniş kartlarının sayı ötən ilin müvafiq dövründə 188 min 545 ədəd təşkil edirdisə, hazırda elektron ödəniş kartlarının ümumi sayı 210 min 76-ya çatmış və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 21 min 531 ədəd artmışdır. Vətəndaşların, xüsusilə kənd yerlərində əməkhaqqı, pensiya və müavinətlərin tamamilə ödəniş kartları vasitəsilə ödənilməsinin təşkili daim diqqət mərkəzində saxlanılır.

2015-ci ilin yanvar-mart ayları ərzində muxtar respublikada fəaliyyət göstərən banklarda fiziki şəxslərin əmanətlərinin həcmi 9 milyon 345 min manat, o cümlədən xarici valyuta ilə 3 milyon 49 min manat təşkil edir. Banklara qoyulan əmanətlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 milyon 997 min manat artmışdır.

Cari ildə muxtar respublikada fəaliyyət göstərən bütün bank qurumları tərəfindən elektron ödəniş məkanının formalaşdırılması, valyuta mübadiləsi əməliyyatlarının qanunvericiliyə və mövcud qaydalara uyğun aparılması, kredit portfelinin keyfiyyətinə nəzarətin gücləndirilməsi, pul dövriyyəsinin təşkilinin daha da müasirləşdirilməsi, bank infrastrukturunun inkişafı, nağdsız hesablaşmaların həcminin artırılması, bank resurslarının iqtisadiyyatın real sektoruna, xüsusilə kənd təsərrüfatı və sənayenin inkişafına yönəldilməsi prioritet sahə kimi nəzarətdə saxlanılaraq icrası təmin ediləcəkdir.

**Elçin ƏLİYEV**
***Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin İqtisadi təhlil və statistika şöbəsinin rəisi***

# Qədim və müasir Naxçıvanın yeni məhəllələri



***Naxçıvan-Kəngərli magistral yolunun sağında Naxçıvan şəhərinin Əliabad qəsəbəsindəki Əcəmi Naxçıvaninin adını daşıyan məhəllədə yeni tikilən evlər həmin magistraldan keçən insanların diqqətini çəkir. Söhbətimiz də həmin məhəllə və onun sakinləri barədədir. Bəlkə də, bu mövzu çoxlarına adi görünər. Amma elə deyil. Fikrimizcə, Naxçıvanın 20 ilə yaxın inkişafının izlərini bütün çalarları ilə görmək baxımından bu məhəllə ən yaxşı nümunədir. Yol kənarında dayanıb boy-boy sıralanan evlərə baxıram.***

Bir-birindən gözəl, arxitektura üslubu ilə zövqoxşayan evlər məni heç də uzaq olmayan yaxın keçmişə aparır. Çoxlarımız yaxşı xatırlayırıq o keçmişi. Bir vaxtlar bu ünvan çöllük idi. O zaman kim bilərdi ki, burada yeni yaşayış massivi salınacaq, neçə-neçə ailə buralarda kök salacaq. İndi isə bu ünvan insanda xoş duyğular yaradan bir məkandır. Bu məkanda sıralanan evlərlə yanaşı, göylərə boy verən ağaclar da diqqəti çəkir.

Elə bu fikirlərlə həmin məhəlləyə doğru irəliləyirəm. Düşünürəm ki, məhəllə haqqında burada yaşayan sakinlərin fikirlərini öyrənim. Necə yaşayır bu məhəllənin sakinləri? Güzəranlarını necə qurublar? Qarşımıza çıxan hərbçi Orxan Məmmədovla həmsöhbət oluram. Deyir ki, bir neçə ildir, bu məhəllədə yaşayır. Bildirir ki, şəhər mərkəzindən bir az kənarda yerləşən bu ərazidə bir neçə il əvvəl evlər çox seyrək idi. Əhalinin yaşayış səviyyəsi, ailə qazancı torpaq sahəsi almağa imkan vermirdi. İndi isə burada boş torpaq sahəsi tapmaq olmaz. Sağımız, solumuz yeni və müasir üslubda tikilmiş evlərdir. Ən sevindirici hal da ondan ibarətdir ki, bir zamanlar yazyayda toz-duman olan, payız-qışda zığ-palçıqdan keçilməz hala düşən məhəlləmizdə ötən ilin yay aylarında qızğın iş getdi; yollar genişləndirildi, asfaltlandı, səliqəli piyada səkiləri salındı. Bundan əlavə, vətəndaşların şəxsi yaşayış evlərinin hasarları suvandı, rəngləndi. Bu gün Naxçıvan şəhərinin mərkəzi küçələri ilə kənar məhəllələrin küçələri bir-birindən seçilmir. Bütün bunlar üçün həm öz adımdan, ailəmiz adından, eləcə də məhəlləmizin sakinləri adından dövlətimizə minnətdarlığımı bildirmək istəyirəm. Həyat şəraitimizin yaxşılaşdırılması üçün həyata keçirilən işləri görəndə fəxr edir, qürur duyuruq.

Yanında iki məktəbli olan bir xanıma yaxınlaşıram. Sevinc xanımın dedikləri:

– 10 ildir, ailə qurmuşam. Bunun 6 ilini Naxçıvan şəhərinin müxtəlif məhəllələrində kirayələrdə yaşamışıq. Amma bir neçə il əvvəl Əliabad qəsəbəsinin Əcəmi Naxçıvani məhəlləsində torpaq aldıq, ev tikdik. İndi çox şükür, öz evimiz var. Bura köçdüyümüz ilk vaxtlarda həmişə özözümə şikayətlənirdim ki, mərkəzdən aralı düşmüşük. Naxçıvan şəhərindəki 12 nömrəli tam orta məktəbdə müəllim işlədiyimdən mənə Əliabaddan məktəbə gəlib-getmək çətin gəlirdi. O vaxt qəsəbənin yolları da pis vəziyyətdə idi. Nəzərə alsaq ki, iki övladım da işlədiyim məktəbdə oxuyur, onda özünüz vəziyyəti təsəvvür edin. Yayda hər tərəf toz-torpaq olurdu, yazda, payızda palçıq. Qışda da qara bata-bata işə gedib-gəlirdik. Amma ötən ilin ortalarından başlayaraq Əliabad qəsəbəsinin hər tərəfi, eləcə də yaşadığımız Əcəmi Naxçıvani məhəlləsi abadlaşdırıldı; su və kanalizasiya xətləri çəkildi, yollarımız asfaltlandı, piyadalar üçün səkilər düzəldildi. İşıqlandırma sistemləri yaradıldı. Küçə işıqları bu gün məhəllənin gecəsini gündüzə çevirib. İndi düşünürəm ki, nə yaxşı o vaxt burdan torpaq alıb ev tikdik. İndi işıqlı, yaraşıqlı, təmiz və abad məhəlləmizdən bizə qonaq gələn əzizlərimiz də razılıqla danışırlar.

Bir az irəlilədikdən sonra yeni tikilən evə həvəslə baxan bir gənc diqqətimizi çəkir. Yeni tikilməkdə olan evinə baxır. Hiss etmək çətin deyil ki, evinin hazır olmasını səbirsizliklə gözləyir. Düşünürəm ki, daha bir ocağın yaxın vaxtlarda işığı yanacaq. Daha bir ailə yeni mənzilin sevincini yaşayacaq. Ürəyimdən bir arzu keçir: bu işıqlar bütün gənclərimizin evində yansın, yeni mənzilin sevincini arzusunda olan bütün soydaşlarımız yaşasın.

Evlərinin önündə nəvəsinin oynamasını həvəslə izləyən Rəşid babaya yaxınlaşıram:

– Heç yadımdan çıxmaz. Biz burada məskunlaşanda ailələrin sayı heç 20-yə də çatmazdı. Çox çətinliklərlə üzləşdiyimizdən dəfələrlə köçmək fikrinə düşdük. Ancaq muxtar respublikada həyata keçirilən quruculuq tədbirlərini, insanlara göstərilən qayğını görəndə inanırdım ki, bir vaxt bu məhəllə də gözəl və problemsiz yaşayış məntəqələrindən birinə çevriləcək. Və belə də oldu.

Müdriklərdən birinin sözləridir: "Dünəninə xor baxsan, gələcək səni topa tutar". Bu qənaətdə böyük məna var. Ancaq naxçıvanlılar dünəni necə qoruyublarsa, bu missiya günümüzdə daha geniş mənada həyata keçirilir. Yəni ulu tarix, bu tarixin izləri yaşana-yaşana, yaşadıla-yaşadıla həmin tarixə yeni naxışlar əlavə olunur. Bu prosesi qədim yurd yerinə respublikamızın digər bölgələrindən, qonşu xarici ölkələrdən gələnlər də görürlər, təqdir edirlər. Onu da qeyd edək ki, yeni tarixin qısa bir zamanda – 20 ilə yaxın bir dövrdə belə zənginliklə yazıldığına inanmayanlar da var. Bunun üçün, çox demirəm, bircə dəfə bu torpağa ayaq basmaq lazımdır.

Bəli, bu gün muxtar respublikamızın bütün guşələri özgə bir büsatdadır. Regionun hansı yaşayış məntəqəsinə üz tutsaq, yeniliyin, müasirliyin yaratdığı mənzərələrlə rastlaşarıq. Belə ünvanlar isə bir deyil, beş deyil, onlarla, yüzlərlədir. Biz, sadəcə, bir məhəllənin timsalında bunu oxuculara çatdırdıq.

***Bu gün Əcəmi Naxçıvani məhəlləsi böyüyür, inkişaf edir. Gənc ailələrin sayı artır. Yeni qaldırılan və təməli qoyulan evlər getdikcə artır. Biz məhəllədən ayrılarkən həyət evlərinin birindən musiqi səsi ətrafa yayılmışdı. Öyrəndik ki, iki gəncin ailə qurması münasibətilə xınayaxdı mərasimi keçirilir. Qoy həmişə bu məhəllədən, bütün məhəllələrimizdən toy səsi eşidilsin! Bu səs xoşbəxt və firavan bir ailənin gələcək xoş günlərinin sədasıdır.***

**Sara ƏZİMOVA**

Əziz Şərif – 120

# Əziz Şərifin tərcüməçilik fəaliyyəti



***Azərbaycan ədəbi-elmi fikrinin inkişafında xüsusi xidmətləri olan Əziz Şərifin yaradıcılıq irsi çoxcəhətli və zəngindir. "Görkəmli pedaqoq və elm xadimi Əziz Şərifin 120 illik yubileyinin keçirilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 26 yanvar 2015-ci il tarixli Sərəncamında qeyd olunduğu kimi: "Çoxlu məqalələrin, elmi əsərlərin, tənqidi-bioqrafik oçerk və monoqrafiyaların müəllifi olan Əziz Şərifin elmi fəaliyyəti və axtarışları nəticəsində Azərbaycanın görkəmli yazıçılarının bir sıra əsərləri, XIX-XX əsrlərə dair çoxsaylı məktublar, sənəd və fotoşəkillər, qiymətli əlyazma materialları aşkarlanaraq elmi və ədəbi mühitə təqdim edilmişdir. Müasir Azərbaycan ədəbiyyatının görkəmli tədqiqatçısı olan Əziz Şərif bədii tərcümə və publisistika sahəsində də səmərəli fəaliyyət göstərmiş, Azərbaycan klassik yazıçı və mütəfəkkirlərinin əsərlərini rus dilinə tərcümə etmişdir".***

Əziz Şərif bədii tərcümə ilə ardıcıl məşğul olmuşdur. Xatirələrindən öyrənirik ki, o, hələ 1911-1912-ci illərdə Bakıda çıxan "İşıq" qəzetində bir sıra tərcümələr dərc etdirmişdir. Belə ki, gənc mütərcim rus yazıçısı N.Najivinin "Ulduzların söhbəti" hekayəsini dilimizə çevirmiş, həmin tərcümə "İşıq"da "Tiflis əvvəlinci gimnaziyanın şagirdi Əbdüləziz Şərifov Naxçıvani" imzası ilə oxuculara çatdırılmışdır: 1911, № 23, 24, 25. Rus ədibi Xiryakovun "Rəhm çeşməsi və ya Taqarnatanın göz yaşları" hekayəsinin Ə.Şərif tərəfindən edilmiş tərcüməsi isə 1912-ci ildə İ.Haqqinin Tiflisdəki "Şərq" mətbəəsində kitabça kimi çapdan çıxmışdır. Bu, Ə.Şərifin nəşr olunmuş ilk kitabı idi. Həmin nəşr barədə "Molla Nəsrəddin" jurnalı da 12 oktyabr 1913-cü il tarixli sayında məlumat vermişdir. Tərcüməçilik fəaliyyətini davam etdirən Ə.Şərif məşhur rus yazıçısı L.N.Tolstoyun "Hamının Allahı birdir" adlı fəlsəfi hekayəsini, eləcə də V.Jukovskinin "Kannitferştan" əsərini həmin vaxt dilimizə tərcümə etmişdir. Ə.Şərif 1913-cü ildə rus dramaturqu A.Ostrovskinin "Tayfun" pyesini Azərbaycan dilinə tərcümə etmişdir. 1914-cü ilin qışında məşhur aktyor H.Ərəblinski "Tayfun"un tərcüməsini Ə.Şərifdən alıb oxumuş, bəyənmiş, hətta əsəri Tiflisdəki Azərbaycan aktyorlarının köməyi ilə tamaşaya qoymaq istəmiş, lakin baş tutmamışdır.

Sonrakı illərdə daha ardıcıl çalışan Ə.Şərif müxtəlif yazıçıların bir sıra əsərlərini böyük məharətlə doğma dilimizə çevirmişdir. Xüsusən 1920-ci illərin ikinci yarısından etibarən onun mütərcimlik fəaliyyəti daha geniş xarakter almışdır. Rus yazıçısı A.Fadeyevin "Tarmar" romanının Ə.Şərif tərəfindən edilmiş tərcüməsi Bakıda 1928-ci ildə "Azərnəşr"də çap olunmuşdur. 165 səhifəlik bu kitabın içərisindəki qeyddə bildirildiyi kimi, həmin nəşr "dövləti-elmi şura tərəfindən məktəb kitabxanaları üçün təsbit edilmişdir". Rus yazıçısı N.Lyaşkodan tərcümə etdiyi hekayələr isə həmin il "Azərnəşr"də "Evdə və qandalaq haqqında" adıyla işıq üzü görmüşdür. 87 səhifəlik bu tərcümənin redaktoru o zaman "Azərnəşr"də işləyən yazıçı-publisist, tərcüməçi Ələkbər Qərib Naxçıvanlı idi. Həmin vaxt Ə.Şərifin məşhur ingilis ədibi V.Şekspirin "Otello" faciəsini də tərcümə etməsi bəllidir. Görkəmli rus yazıçılarından N.V.Qoqolun "Evlənmə", M.Qorkinin "Ana", "Düşmənlər" əsərlərini də Ə.Şərif yüksək səviyyədə dilimizə tərcümə etmişdir. Yazıçı A.Çimbenin Gürcüstanda yaşayan etnik xevsurların məişətindən, həyatından bəhs edən "Dərə adamları" adlı romanının Azərbaycan dilinə tərcüməsi də Ə.Şərifə aiddir. Ə.Şərifin arxivindəki materiallardan öyrənirik ki, o, həmkarı Ələkbər Qərib Naxçıvanlının təklifi ilə həmin əsəri dilimizə çevirmişdi. Bu tərcümə 1930-cu ildə "Azərnəşr" tərəfindən kitab halında çap olunmuşdur. Kitabda tərcüməçi Əziz Şərif atasının adı ilə, yəni "Ə.Qurbanəli oğlu" kimi göstərilmişdir. 1942-ci ildə fransız ədibi Mopassanın "Madmazel Fiti" novellası da Ə.Şərifin ruscadan tərcüməsi əsasında oxuculara çatdırılmışdır.

Görkəmli alim rus dilindən bir sıra publisistik və elmi-kütləvi əsərləri də dilimizə çevirmişdir. Bu baxımdan K.Piqaryevin məşhur rus sərkərdəsi Suvorov haqqında oçerklərdən ibarət "Soldat-sərkərdə" kitabının Ə.Şərifin tərcüməsində çapını xatırlatmaq olar.

Gürcü dilini də mükəmməl bilən Əziz Şərif qonşu xalqın ədəbiyyatından bəzi nümunələri orijinaldan çevirmişdir. Onun hələ 1929-cu ildə gürcü yazıçısı N.Mitsişvilidən etdiyi tərcümələr Bakıda "Azərnəşr" tərəfindən çap olunmuş "Fevral" adlı 56 səhifəlik kitabda toplanmışdı. Elə həmin ildə Ə.Şərif gürcü ədibi E.Ninoşvilinin iki hekayəsini də dilimizə çevirmiş, bu əsərləri "Azərnəşr" "Palyastom gölü" adlı 67 səhifəlik kitabda oxucalara çatdırmışdı.

Əziz Şərif eyni zamanda Azərbaycan ədəbiyyatının M.F.Axundzadə, C.Məmmədquluzadə, M.S.Ordubadi, Ə.Haqverdiyev, S.S.Axundov, A.Şaiq, C.Cabbarlı, T.Şahbazi, B.Talıblı, S.Rəhimov, Mir Cəlal, M.İbrahimov, M.Hüseyn, Ə.Məmmədxanlı və digər görkəmli nümayəndələrinin bir sıra əsərlərini rus dilinə çevirərək çap etdirməklə, həmin nəşrlərin bir çoxuna dərin məzmunlu ön söz yazmaqla söz sənətimizin respublikamızdan kənarlarda tanıtdırılması və təbliği işinə layiqli töhfələr vermişdir. M.F.Axundzadənin "Aldanmış kəvakib" povesti, komediyaları, Mirzə Cəlilin əsas əsərləri, Ə.Haqverdiyevdən hekayə, dram və felyetonlar, S.Saninin "Qorxulu nağıllar"ı, A.Şaiqin "Məktub yetişmədi", C.Cabbarlının "Aydın", "Gülər" və sair əsərləri, M.Hüseyndən povest və hekayələr, "Nizami" dramı, B.Talıblı, T.Şahbazi və S.Hüseyndən bəzi hekayələr, Mir Cəlalın "Bir gəncin manifesti" romanı, bir sıra hekayələri, S.Rəhimovun "Şamo" romanı, M.İbrahimovun "Gələcək gün" romanı və bəzi hekayələri, Ə.Məmmədxanlıdan seçmə hekayələr, "Koroğlu" dastanının nəsr hissələri və adını çəkmədiyimiz digər əsərlər Əziz Şərif tərəfindən yüksək professionallıqla rus dilinə tərcümə olunmuş, ədəbiyyatımızın genişmiqyasda tanıtdırılması sahəsində mühüm rol oynamışdır.

Görkəmli ədəbiyyatşünas-alimin həm başqa dillərdən Azərbaycan dilinə, həm də dilimizdən ruscaya tərcümələri özünün mükəmməlliyi, dəqiqliyi, orijinala sədaqəti ilə diqqəti çəkir. Təsadüfi deyil ki, müxtəlif vaxtlarda ayrı-ayrı yazıçı və ədəbiyyatşünaslar onun tərcümələrini yüksək dəyərləndirmiş, ədəbi əlaqələrin mühüm səhifəsi saymışlar.

Azərbaycan bədii tərcümə tarixində xüsusi mövqeyi olan Əziz Şərif bu sahə ilə əlaqədar bir sıra məqalələr də yazmışdır. O, Bakı, Tiflis, Moskva və digər şəhərlərin dövri və elmi mətbuatında ayrı-ayrı tərcümələr barədə resenziyalar, həmçinin bədii tərcümənin nəzəri və praktik məsələlərinə dair qiymətli məqalələr dərc etdirmişdir. O, 1967-ci ildə dərc etdirdiyi "Bədii tərcümənin bəzi məsələləri ətrafında" adlı məqaləsində xarici ədəbiyyatın dilimizə orijinaldan tərcüməsinin vacibliyi barədə yazırdı: "Respublikamızda Avropa ədəbiyyatını ruscaya tərcümədən təkrar tərcümə təcrübəsindən, nəhayət, əl çəkməyin və orijinaldan tərcümə etməyin vaxtı çoxdan çatmışdır... Belə tərcümələrin ömrü gödək, keyfiyyəti isə çox aşağı olur". Həmin məqalədə tərcümənin keyfiyyətini şərtləndirən faktorlardan danışan Ə.Şərif fikrini belə ümumiləşdirmişdir: "Bədii tərcümə yalnız o zaman müvəffəqiyyətli ola bilər ki, tərcümə edən yazıçı həqiqətdə dəqiq söz ustası olmaqla bərabər, eyni zamanda tərcümə elədiyi əsərin dilini, əsər müəllifinin yaradıcılığını, həmin milli ədəbiyyatın xüsusiyyət və inkişaf yolunu, həmin xalqın tarixini bilmiş olsun. Həm də tərcümə elədiyi ədəbiyyatı, əsərin müəllifini, əsərin özünü sevsin, bəyənsin, bütün istedad və zəhmətini tərcümə üçün əsirgəməsin". Başqa bir məqaləsində görkəmli alim tərcümənin yüksək səviyyəsi üçün iki şərtin vacibliyini xüsusi vurğulamışdı: "Bir əsəri tərcümə edərkən sənətkar ən azı iki şərtə riayət etməli, iki məqsəd izləməlidir: birinci – əsərin məzmun və məndəricəsini olduğu kimi oxucuya çatdırmaq, ikinci – əsərin milli xüsusiyyətini, bədii ruhunu saxlamaq, bədii əsəri elə tərcümə etmək ki, oxucu onun hansı xalqa aid olduğunu, hətta hansı dildən tərcümə edildiyini duysun". Ustad mütərcimin özünün tərcümələrində bütün bu vacib şərtlərə mükəmməl şəkildə əməl olunmuşdur.

*Ümumiyyətlə, professor Əziz Şərifin həm tərcüməçilik fəaliyyəti, həm də bu sahəyə dair məqalələri iyirminci əsr Azərbaycan bədii tərcümə tarixində mühüm yer tutur.*

**Hüseyn HƏŞİMLİ**
***filologiya üzrə elmlər doktoru, Əməkdar elm xadimi***

***Müasir dövrdə güclü dövlət həm də güclü sosial dayaqlara malik vətəndaş cəmiyyəti strukturudur. Hər bir ölkənin və onun əhalisinin əmin-amanlıq şəraitində, rifah halında yaşaması güclü dövlətin ən mühüm şərtidir. Çünki dövlətin və cəmiyyətin idarə olunmasında müəyyən mexanizmlər olsa da, bütün maddi və mənəvi problemlərin həllində dövlət məhz cəmiyyətin dəstəyinə arxalanır. Buna görə də insan amilinə həssas yanaşılan ölkələrdə dövlət-vətəndaş münasibətləri ən yüksək səviyyədə özünü təzahür etdirir.***

# Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası sosial məsuliyyətin parlaq ifadəsidir



Bu gün hərtərəfli inkişafı ilə seçilən Azərbaycanda vətəndaş cəmiyyətinin qurulmasında, əhalinin sosial qayğıya ehtiyacı olan təbəqəsinə isti münasibətin formalaşdırılmasında, sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyasında ortaya qoyulan yanaşma bir çox dünya ölkələri üçün də nümunə ola bilər. 2003-cü ilin oktyabrında böyük səs çoxluğu ilə ölkə rəhbəri seçilən Prezident İlham Əliyev: ***"Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam"*** deyərkən məhz öz gələcək fəaliyyətində cəmiyyətin hər bir üzvünü, o cümlədən sağlamlığı məhdud olan vətəndaşları da nəzərdə tuturdu. 5 oktyabr 2010-cu ildə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin açılışı mərasimində ölkə başçısının söylədiyi ***"Fiziki imkanları məhdud olan uşaqlar burada oxuyacaqlar. Onlar cəmiyyətdən kənarda qalmayacaqlar. Azərbaycanda elə şərait yaradılmalıdır ki, bütün vətəndaşlar onların fiziki imkanlarına baxmayaraq, ondan asılı olmayaraq, cəmiyyətdə öz yerini tuta bilsin"*** fikirləri isə dövlət başçısının bu kateqoriyadan olan vətəndaşlara xüsusi diqqətinin təzahürü olmaqla yanaşı, Naxçıvanın həm də digər regionlar üçün bir nümunə olduğunu göstərirdi. Muxtar respublikada sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası, hüquqlarının təmin olunması, eləcə də onların sosial müdafiəsi daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı" sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası istiqamətində yeni mərhələnin başlanğıcını qoyub. Fiziki imkanlarının məhdudluğundan asılı olmayaraq, hər bir insanın cəmiyyətə inteqrasiyasının təmin olunması təkcə müəyyənləşdirilən vəzifə deyil, həm də müqəddəs bir vəzifədir. Əgər ölkəmizdə məhdud fiziki imkanlı insanların xüsusi təhsili haqqında mövcud olan qanunvericilik bazası onların, sadəcə, təhsil almasını nəzərdə tuturdusa, yuxarıda adıçəkilən dövlət proqramı bu kateqoriyadan olan uşaqların digər uşaqlarla birgə təhsilə cəlb edilməsini, onların cəmiyyətə inteqrasiyasının hədəfləyir. Təbii ki, bu sahədə artıq 5 ilə yaxın bir müddətdə fəaliyyət göstərən Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin üzərinə böyük vəzifələr düşür. Qeyd edək ki, mərkəzin yaradılmasında əsas məqsəd muxtar respublikada məhdud fiziki imkanlı şəxslər üçün informasiya texnologiyalarının tədrisini, görmə qabiliyyəti məhdud olan uşaqlara informasiya texnologiyaları sahəsində bilik və bacarıqların aşılanmasını, habelə uşaqların sosial reabilitasiyasını və onların cəmiyyətə inteqrasiyasını təmin etməkdən ibarətdir. Hazırda mərkəzdə brayl kitabxana, eşitmə qabiliyyəti məhdud şəxslər üçün elektron kitabxana, görmə qabiliyyəti məhdud şəxslər üçün audiokitabxana, zehni inkişafında və nitqində qüsurları olan uşaqların reabilitasiyası məqsədilə kinekt otağı, defektoloji bölmə, sağlamlıq imkanları məhdud uşaqların sosial adaptasiyası məqsədilə əmək terapiyası otağı fəaliyyət göstərir. Audio və elektron kitabxana mütəmadi olaraq yeni ədəbiyyatlarla zənginləşdirilir. Otaqlarda quraşdırılan müasir tədris avadanlıqları sağlamlıq imkanları məhdud uşaqların təhsil almasına, onların kompüter və digər elektron tədris vasitələrindən istifadə bacarıqlarının artırılmasına şərait yaradır. "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq, muxtar respublikada hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən ümumtəhsil müəssisələrinə gedə bilməyən uşaqların təhsil almasını təmin etmək məqsədilə mərkəzdə məhdud fiziki imkanlılar üçün Distant Tədris Mərkəzi yaradılıb. Bu məqsədlə mərkəzdə iki otaq ayrılıb. Otaqların birində mərkəzi server və çevirici avadanlıqlar quraşdırılıb, tədris sinfi intellektual-elektron lövhə, kompüter, smart kamera, monitor və digər texniki avadanlıqlarla təchiz olunub. Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi tərəfindən distant təhsilə 4 müəllim cəlb edilib. Ötən dövr ərzində həmin müəllimlərə, eləcə də distant tədrisə cəlb olunan sağlamlıq imkanları məhdud uşaqların valideynlərinə sistemdən istifadə qaydalarının öyrədilməsi məqsədilə kurs keçilib. Distant tədrisə cəlb olunan uşaqların yaşadığı mənzillərdə asinxron rəqəmsal abunəçi avadanlığı, noutbuk və veb-kameralar quraşdırılıb. Tədris mərkəzinə eyni vaxtda 50 istifadəçinin qoşulması mümkündür. Serverin tutumunun 200 istifadəçiyədək artırılması nəzərdə tutulub ki, bu da gələcəkdə daha çox şagirdin videobağlantı vasitəsilə məsafədən tədris prosesinə qoşulmasına imkan verəcəkdir. Hazırda muxtar respublika üzrə sağlamlıq imkanları məhdud 19 uşaq distant təhsilə cəlb edilib. Yazını hazırlayarkən həmin uşaqlardan bəziləri – Şərur rayonunun Oğlanqala kənd sakini 19 yaşlı Validə Mahmudova, Babək rayonunun Aşağı Uzunoba kəndində yaşayan 12 yaşlı Rauf Hüseynov, Şahbuz rayonunun ucqar Ağbulaq kəndindən 13 yaşlı Taleh Cəmşidli ilə telefon əlaqəsi saxlayaraq təhsilləri ilə maraqlandıq. Hər üç yeniyetmə təhsil almağın onlar üçün çox böyük arzu olduğunu və bu arzularının reallaşmasında zəhməti olan hər kəsə minnətdarlıqlarını bildirdilər. Bir sözlə, azyaşlı müsahiblərimiz distant təhsilin onların gələcək həyatında mühüm rol oynayacağını, dövlətimizin onları unutmadığı üçün bu Vətənin ən layiqli vətəndaşları olacaqlarını qeyd etdilər.

***"Əgər xalqımızın, dövlətimizin gələcəyini düşünürüksə, bu gələcəyin təminatçısı olan uşaq və gənclərin sağlam mühitdə yetişməsi qayğısına qalmalı, onların təlim-tərbiyəsi ilə ciddi məşğul olmalıyıq".*** Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin söylədiyi bu fikirlər kifayət qədər sadə və aydın səslənsə də, burada cəmiyyətin hər bir üzvünə ünvanlanmış bir mesaj da var: istənilən cəmiyyət sağlamlıq imkanları məhdud şəxslərdən sığortalanmayıb. Lakin sağlam cəmiyyət bu kateqoriyadan olan şəxslərin cəmiyyətdən kənar qalmasına icazə verməməlidir. Qeyd etməliyik ki, ötən müddət ərzində muxtar respublikada bu sahədə ən müasir təcrübə əldə edilib. İkinci bir tərəfdən, muxtar respublikanın iqtisadi tərəqqisinin təməlində sosial dayanıqlılıq mühüm paya sahibdir. Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası yönündə atılan addımlar dövlətin cəmiyyət qarşısında məsuliyyətini ortaya qoymaqla yanaşı, həm də vətəndaşlarda sosial məsuliyyət mədəniyyətinin formalaşmasına şərait yaradır.

**Səbuhi HƏSƏNOV**

# Zabitlər evində məşğələ

*Naxçıvan Qarnizonunun Zabitlər Evində “Hərbi qulluqçuların psixoloji vəziyyətinin və temperamentinin öyrənilməsi metodikası” üzrə nümayiş-məşğələ keçilib.*



Məşğələdə Əlahiddə Ümumqoşun Ordusu komandanının müavini, general-mayor Vasif Kazımov çıxış edərək bildirib ki, ordunun Mənəvi-psixoloji təminat şöbəsi tərəfindən şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin və hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi işində xüsusi əhəmiyyətə malik olan məqsədyönlü tədbirlər həyata keçirilir. Bu tədbirlərdən biri də hərbi qulluqçuların daxili psixoloji vəziyyətinin, temperament tipinin öyrənilməsi üsulları və onun aktuallığının vacibliyi mövzusunda keçilən nümayiş-məşğələdir. Məşğələnin keçilməsində əsas məqsəd Əlahiddə Ümumqoşun Ordusunun birləşmə və hərbi hissələrinin şəxsi heyətlə iş üzrə zabitləri və psixoloqları tərəfindən hərbi xidmətə yeni çağırılmış hərbi qulluqçuların sosial-psixoloji və ailə-məişət problemlərinin öyrənilməsidir. Bundan başqa, bu məşğələdə fərdi tərbiyəvi işin əhəmiyyəti, fərdi söhbət dəftərində qeydiyyatın aparılması qaydası, sual-cavabın anonim keçirilməsi qaydaları haqda iştirakçılara ətraflı məlumat veriləcəkdir. Əlavə olaraq qarovula, döyüş növbəsinə və gündəlik xidmət naryadlarına təyin olunan şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin öyrənilməsi, hərbi qulluqçularla psixoloji testlərin aparılması və temperament tipinin aşkar edilməsi üsullarının mükəmməl öyrənilməsi nümayiş-məşğələnin keçilməsinin məqsədlərindən biridir.

Əlahiddə Ümumqoşun Ordusunun zabiti, polkovnik Mirqiyas Rüstəmov çıxışında qeyd edib ki, şəxsi heyətin hərbi-vətənpərvərlik tərbiyəsinin və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsi işində qabaqcıl təcrübə və üsullardan yararlanmaqla yanaşı, həm də xalqımızın milli-mənəvi dəyərləri və adət-ənənələri əsas götürülür. Belə ki, hərbi hissə və bölmələrdə şəxsi heyət arasında nizam-intizamın möhkəmləndirilməsi, əsgəri dostluq, yoldaşlıq münasibətlərinin və milli həmrəylik ruhunun daha da gücləndirilməsində xalqımızın milli dəyərlərinə əsaslanılır. Belə tərbiyə metodları şəxsi heyət arasında əsgəri dostluq, yoldaşlıq, mehribanlıq mühitinin formalaşmasına öz müsbət təsirini göstərir. Əlahiddə Ümumqoşun Ordusunun Mənəvi-psixoloji təminat şöbəsi tərəfindən əsgərlərin mənəvi-psixoloji durumunun və hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi istiqamətində əməli tədbirlər müntəzəm olaraq davam etdirilir ki, hər bir əsgər hərbi anda, Vətənə və xalqa sadiq olsun.

## Vətənpərvərlik mövzusunda filmlər nümayiş etdirilir

Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə 1941-1945-ci illər müharibəsində qazanılan qələbənin 70 illik yubileyi münasibətilə film nümayiş olunub.

Qələbənin 70 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında qeyd olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planının müvafiq bəndinə əsasən, gənclərin Vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunmaları, dünyagörüşlərinin artırılması məqsədilə vətənpərvərlik mövzusunda filmlər nümayiş etdirilir. Ötən həftə nümayiş olunan “Mən sizi dünyalar qədər sevirəm” filmi izləyicilər tərəfindən maraqla qarşılanıb.

Filmdə milli qəhrəman Həzi Aslanovun həyatı, onun döyüş yolu öz əksini tapıb.

**Xəbərlər şöbəsi**

## Növbəti maarifləndirici tədbir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilən “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”nın icrası ilə bağlı cari ilin ötən dövrü ərzində sağlamlıq imkanları məhdud uşaqların məktəbəqədər, ümumtəhsil və məktəbdənkənar müəssisələrə cəlbi, habelə onların cəmiyyətə inteqrasiyası istiqamətində tədbirlər davam etdirilib.***

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndələrindən ibarət müvafiq komissiya 2014-2015-ci tədris ilində Naxçıvan şəhər, həmçinin Şərur, Babək, Culfa, Ordubad və Sədərək rayonlarında sağlamlıq imkanları məhdud uşaqların cəlb olunduğu məktəbəqədər, ümumtəhsil və məktəbdənkənar müəssisələrdə olub, uşaqların tədrisdə iştirakına, peşə maraqlarının aşkar edilməsinə, ümumtəhsil müəssisələrində psixoloqlar tərəfindən sağlamlıq imkanları məhdud uşaqlarla əlaqədar fərdi proqram əsasında həyata keçirilən tədbirlərin nəticələrinə dair monitorinqlər, həmçinin sağlamlıq imkanları məhdud uşaqların valideynləri, müəllimləri ilə maarifləndirici görüşlər keçirib.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq, Cəhri kənd 1 nömrəli tam orta məktəbdə komissiya üzvlərinin, Cəhri kənd tam orta məktəblərində tədrisə cəlb olunan sağlamlıq imkanları məhdud uşaqların valideynlərinin, bu kateqoriyadan olan uşaqlara fənləri tədris edən müəllimlər və məktəb psixoloqlarının iştirakı ilə tədbir keçirilib. Görüşdə məktəbdə psixoloji xidmətin təşkili, sağlamlıq imkanları məhdud uşaqların təhsili ilə bağlı psixoloqlar tərəfindən hazırlanan fərdi proqramlar əsasında həyata keçirilən tədbirlər, onların tədrisdə iştirakının vəziyyəti və qarşıda duran vəzifələrlə əlaqədar maarifləndirici söhbətlər aparılıb.

Komissiya üzvləri tərəfindən tədbir iştirakçılarının sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*Qələbə – 70*

## Faşizm üzərində qələbənin 70-ci ildönümü qeyd edilib

*Kəngərli Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının birgə təşkilatçılığı ilə Xok kənd tam orta məktəbində 1941-1945-ci illər müharibəsində qazanılan qələbənin 70-ci ildönümü ilə əlaqədar tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə məktəbin direktoru Emin Məmmədxanlı açaraq 1941-1945-ci illər müharibəsində iştirak edən naxçıvanlı vətənpərvər igidlərin göstərdiyi şücaətdən danışıb. O bildirib ki, 1941-1945-ci illərdə 700 minə yaxın azərbaycanlı, başqa sözlə, respublika əhalisinin hər 5 nəfərindən biri cəbhəyə yollanıb, onların 450 min nəfəri və ya 65 faizi orden və medallarla təltif olunub, 130 nəfər “Sovet İttifaqı Qəhrəmanı” adına layiq görülüb. Müharibədə iştirak etmiş soydaşlarımızın, təxminən, yarısı həlak olub, azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 223-cü və 77-ci diviziyalar şərəfli döyüş yolu keçib. Xalqımızın sarsılmaz iradəsi və inamı ön və arxa cəbhəni birləşdirib, faşizm üzərində qələbənin reallaşmasına kömək edib. Müharibədə şərəfli döyüş yolu keçmiş həmyerlilərimizin adları bu gün də iftixarla səslənir. Çünki onların tarixi şücaətləri gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir.

Sonra Kəngərli Rayon Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri İsmayıl Hüseynquliyev, Gənclər və İdman İdarəsinin rəisi Vüsal Hüseynov çıxışlarında qeyd ediblər ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il 30 aprel tarixli “1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi barədə”, “1941-1945-ci illər Böyük Vətən müharibəsində iştirak etmiş bəzi kateqoriyalardan olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında”, “1941-1945-ci illər Böyük Vətən müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin xüsusi avtonəqliyyatla təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında” sərəncamları bu kateqoriyadan olan insanlara göstərilən qayğının bariz nümunəsidir.

Sonda gəncləri maraqlandıran suallar cavablandırılıb.

## Şahmat müəllimləri arasında birincilik

Sədərək Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Şahmat məktəbinin birgə təşkilatçılığı ilə rayon ümumtəhsil məktəblərinin şahmat müəllimləri arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr edilmiş birincilik keçirilib. Birincilikdə rayon ümumtəhsil məktəblərində şahmatın tədrisi ilə məşğul olan 14 müəllim iştirak edib. İsveçrə sistemi ilə keçirilən yarışda bütün rəqiblərini üstələyən Sədərək kənd 1 nömrəli tam orta məktəbin müəllimi Sultan Rzayev yarışın qalibi olub.

Qeyd edək ki, Sultan Rzayev aprel ayının sonunda Bakı şəhərində keçiriləcək respublika final mərhələsində Sədərək rayonunu təmsil edəcək.

**✍ C.MƏMMƏDOV**

***İdmanla məşğul olmaq insan həyatında böyük dönüşlərə səbəb olub: bəzən xəstəlikdən qoruyub, bəzən uğur gətirib, insanı məşhur idmançı kimi tanıdıb. Azərbaycan idmanı son 20 ildə Avropada ən yüksək nailiyyət əldə etmiş sahə kimi qiymətləndirilir. Bunun səbəbi ölkə rəhbərinin bu sahəyə diqqəti, idmanı və idmançıları daim diqqətdə saxlaması, gənclərin bu sahəyə yönləndirilməsi istiqamətində verdiyi tapşırıqlardır. İndi qürurla deməs olar ki, Azərbaycan idman ölkəsidir və qazanılan uğurlar bu sahənin inkişaf dinamikasının göstəricisidir.***

## İnsan həyatını dəyişən amil: uğurlu idman

***Möcüzəvi növlər***

İdman böyük və əyləncəli olduğu qədər, həm də çətin və çoxşaxəli sahədir. Dünya praktikasında idmanın inkişafı üçün müəyyən tədbirlər planı hazırlanır ki, ilk olaraq, bütün idman növlərinin kütləviliyinə nail olmaq üçün hansından başlanması planlaşdırılır. Bu, idman aləmində çox həssas məsələ kimi qeyd edilir. Çünki bir ölkədə idmanın inkişafı, kütləvi hal alması və tanıdılması üçün ilk addım vacib olmalıdır. Dünya alimləri idmanı təkcə sağlamlıq üçün bir vasitə yox, həm də möcüzəvi hərəkətlər sistemi kimi dəyərləndirirlər. Onlar üçün idmanın bəzi növləri var ki, həmin növlər qeyri-adiliyi ilə yanaşı, həm də insanları bir çox xəstəlikdən xilas edir. Avropalılar bunu belə dəyərləndirdiyi halda, bəzi islam ölkələri möcüzəvi idman növlərini dinlə əlaqələndirirlər. Onların fikrincə, bu idman növləri müntəzəm olaraq edildiyi təqdirdə insan bədənində möcüzəvi vəziyyət yaranır.

***Bəs bu möcüzəvi idman növləri hansılardır?***

**Üzmək** – *bu növ bədənin bütün əzələlərini çalışdırır.*

**Qaçış** – *bu, sadəcə, idman növü deyil, həmçinin müalicə növüdür: insanda stress və depressiya riskini azaldır, nəfəsin düzgün verilib-alınmasını tənzimləyir.*

**Velosiped sürmək** – *insan nə qədər tərləyərsə, o qədər kalori yandıracaq. Bu növdə ayaq əzələləri daim çalışır ki, bu fəaliyyət insanı ayaqda şux saxlayır.*

**Tullanmaq (iplə)** – *dünya alimlərinin apardığı tədqiqatlar nəticəsində məlum olub ki, bu növ ən təsirli yağyandırma hərəkətlərindən ibarətdir. Belə ki, bu hərəkəti etməklə dəqiqədə 15-20 kalori yandırmaq mümkündür.*

**Jim** – *bunu klassik idman növü də adlandırırlar. Bədəni inkişaf etdirməyin ən sadə yolu məhz jimdir. Bu növü fərqli formalarda etməklə bədənin müxtəlif hissələrini də çalışdırmaq mümkündür.*

**Çöməlmə hərəkətləri** – *bu hərəkətlər zamanı bədənin bütün orqanları hərəkət edir, ürək ritmi sürətlənir. Bu növ iki hissədən ibarətdir: tullanma və ağırlıqla tullanma.*

**Yerindən sürətli qaçış** – *ayaq əzələlərinin ən yaxşı inkişafı üçün edilən idmandır. Gündə 20 dəfə 10 metr məsafəni cəld qaçmaqla istəyə nail olmaq mümkündür.*

***Muxtar respublikada olanlar***

Naxçıvan Muxtar Respublikasında möcüzəvi hesab edilən idman növlərinə gənclər arasındakı marağı xüsusi qeyd etməliyik. Hətta bu idman növlərindən ikisinə aid muxtar respublikada federasiya belə fəaliyyət göstərir.

***1. Qaçış*** – Yüngül Atletika Federasiyası. Yüngül atletika bütün idman növlərinin təməlini təşkil edir. Burda ən vacib məqam idmançının güc məşqinə riayət etməsidir. Çünki yüngül atlet daha çox fiziki məşq edib öz yüngül qaçışını itirə bilər. Düzdür, ağır çəki çalışması zamanı əzələ yığmaq üçün edilən idman hərəkətləri qan şəkərini nəzarətdə saxlayan maddələr mübadiləsini artırır. Lakin bununla yanaşı, idmançının sürət tempinə də müəyyən təsir göstərir. Yüngül atletika ilə məşğul olanlar üçün digər nüans gərilməkdir. Burada əsas məsələ tempi tutmaqla yanaşı, insan özü özünü həvəsləndirməyi bacarmalıdır.

***2. Velosiped*** – Hava və Ekstremal İdman Növləri Federasiyası. Bu federasiya yeni yaranmasına baxmayaraq, gördüyü müəyyən işlərlə yadda qalıb. Federasiyanın tərkibində bir çox qəliz və çətin idman növləri olduğundan bu, özündə bütün sahələri birləşdirir. İlk olaraq, bu növlə məşğul olmaq istəyənlər öz bədənlərindəki güclə psixoloji durumlarını balanslaşdırmalıdırlar. Məsələn, ötən il dünyada bu növlə məşğul olanların çoxu müəyyən zədələr alıb. Odur ki, bu növün peşəkarları məsləhət görürlər ki, balanslaşdırmanı təyin etmək üçün qolları açıb gözləri yummaq və əlləri yuxarıya qaldırmaq, həmçinin tennis oynamaq, rəqs etmək, yüngül qaçışla məşğul olmaq insanı zədə almaqdan qoruyacaq. Bu növdən istifadə edənlərdə dözümlülük vacib şərtdir. Dözümlülük üçünsə skelet və əzələlərin güclü olması əsasdır. Bəzən bu növə aid olan dağadırmanma və ya velosipedsürməni çox sadə idman növü hesab etsələr də, bu heç də belə deyil. Velosiped sürmək, dağ turizmi ürək ritmini artırır. Gün ərzində bu növlərlə məşğul olacaqsınızsa, o zaman bundan öncə 10-13 dəqiqə isinmə hərəkətləri etməyiniz vacibdir.

## Babək rayonunda futzal turniri

Babək Rayon İcra Hakimiyyəti, rayon Gənclər və İdman İdarəsi və Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının rayon bölməsinin təşkilatçılığı ilə Çeşməbasar kəndindəki mini-futbol meydançasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş Babək rayonunun idarə, müəssisə və təşkilatları arasında futzal üzrə rayon birinciliyinə yekun vurulub. Birincilikdə 12 komandadan 144 idmançı mübarizə aparıb.

Yarış başlanmazdan öncə Babək Rayon Gənclər və İdman İdarəsinin rəisi Nazim Salmanlı, Babək Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Əbdülhüseyn Zamanov və Futbol Federasiyasının rayon bölməsinin rəhbəri Əsrafil Əsgərov çıxış edərək idmanın inkişafından bəhs edib, yarış iştirakçılarına uğurlar arzulayıblar.

Olimpiya sistemi üzrə keçirilən turnirin qalibi adını Babək Rayon Polis Şöbəsinin komandası qazanıb. Onlar finalda Babək Rayon Mədəniyyət və Turizm Şöbəsinin komandasını məğlub ediblər. Üçüncü yerə isə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Babək Rayon İdarəsinin komandası çıxıb.

Sonda qalib komandalara Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının rayon bölməsinin hədiyyələri təqdim olunub.

**✍ Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Şərur rayonunun Tumaslı kəndində yaşamış Səfərov Yusif Paşa oğlunun adına olan JN-165A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 301